# CAHANGİR ZEYNALOV -150



■ Nigar Pirimova
*teatrşünas*

2015-ci ildə Azərbaycan professional teatrının banilərindən biri, görkəmli aktyor, teatr xadimi və pedaqoq Cahangir Məşədi Rza oğlu Zeynalovun anadan olmasının 150 illiyi tamam olur. C.Zeynalov qüdrətli sənətkar kimi ifaçısı olduğu bütün rolları öz canlı müşahidələri sayəsində daim yeni cizgilərlə zənginləşdirib və həyat həqiqətlərini realizm prinsipləri əsasında səhnədə müvəffəqiyyətlə canlandıran dolğun surətlər silsiləsi yaradıb. Onun yüksək əhəmiyyətə malik sənət məktəbinin parlaq ənənələri böyük səhnə ustaları tərəfindən layiqincə davam etdirilib.

Cahangir Zeynalov nəinki aktyor kimi, ümumiyyətlə Azərbaycanın sənət aləmində yubileyi keçirilən ilk şəxs olub. Və bugünə qədər yeganə aktyor nəsli Zeynalovlar nəslidir ki, 130 ildir fasiləsiz olaraq Azərbaycan teatrının inkişafında misilsiz xidmətlər göstərir.

Görkəmli sənətkarın yubileyi ölkə Prezidenti İlham Əliyevin "Cahangir Zeynalovun 150 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı ilə keçirilir. Sərəncama əsasən bir sıra tədbirlərin həyata keçirilməsi planlaşdırılıb.

Həmin tədbirlərdən biri də dekabrın 21-də Teatr Xadimləri İttifaqının Mustafa Mərdanov adına səhnəsində keçirilən "Teatr sənətinin Cahangiri tədqiqat müstəvisində" mövzulu elmi-praktik konfrans oldu.

Konfransda bir sıra tanınmış sənət adamları -xalq artisti Azər Paşa Nemətov, Əməkdar incəsənət xadimi, professor Məryəm Əlizadə ("Azərbaycan teatr mədəniyyətində Cahangir Zeynalovun yeri" ), əməkdar incəsənət xadimi, professor İham Rəhimli (" Azərbaycan teatr tarixi və Cahangir Zeynalov"), əməkdar incəsənət xadimi, professor İsrafil İsrafilov ("Cahangir Zeynalov: şəxsiyyət və zaman"), sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aydın Talıbzadə (" Kəblə Cahangirin teatrı"), sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Rafiq Sadıxov ("Cahangir Zeynalov dövrün mətbuatında"), sənərşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov ("Azərbaycan teatrının Cahangiri") müxtəlif mövzularda maraqlı çıxışlar etdilər.

Elmi-praktik konfransın açılışını edən Azər Paşa Nemətov Azərbaycan professional teatrının yaranmasından, ilk teatr aktyorlarının hazırladığı tamaşalardan, Cahangir Zeynalovun bu sənətdə keçdiyi məşəqqətli yoldan, onun milli teatrımız üçün nə qədər önəmli bir şəxs olduğundan, onun öncə aktyor, sonra rejissor, daha sonralar hətta pyes yazan bir yazıçı kimi fəaliyyətindən danışdı.

Daha sonra gecənin aparıcısı Məryəm Əlizadəmaraqlı faktlara toxundu: "Cahangir Zeynalovsuz Azərbaycan teatrını təsəvvür etmək mümkün deyil. O, realist aktyor məktəbinin banisidir. Komik rollar oynasa da, təkcə komik aktyor deyildi. Cahangir Zeynalov özünü heç vaxt komik aktyor kimi görmürdü, bir obrazı oynayanda həmin obrazın daxili qatlarını öyrənirdi. Hacı Qara obrazında Cahangir Zeynalov onun ictimai-sosial vəziyyətini, nə üçün bu günə qaldığını açıqlayırdı. O, insan psixologiyasını çox dərindən bilirdi. Elə bir xeyriyyə işi olmazdı ki, orada Cahangir Zeynalovun adı çəkilməsin" .

İlham Rəhimli isə öz çıxışında maraqlı tarixi faktlara toxunaraq qeyd etdi ki: "Cahangir Zeynalov ilk peşəkar aktyor, ilk peşəkar teatrşünas, ilk kitabxanası olan aktyor, ev teatrı yaradan şəxs olub. İlk dəfə ona yubileyində qizildan həm cib, həm də qol saatı bağışlayıblar. Yeganə aktyor olub ki, onun yubileyi münasibətilə yəhudi, rus, tatar camiyyətləri müxtəlif hədiyyələr yollayıb. Onun yaradıcılığı iki qola ayrılır - aktyor və rejissor. Cahangir Zeynalovun milli teatrımızda rolu əvəzsizdir".

Aydın Talıbzadə isə çıxışında mövzuya başqa rakursdan yanşaraq Cahangir Zeynalovun doğum tarixi ilə bağlı bəzi səhv məlumatlardan, onun yubileyi ilə bağlı maraqlı fikirlərdən, nəyə görə yanında silah gəzdirməsindən, hansı çətinliklərdən keçdiyindən və s.söhbət açdı.

Daha sonra çıxış edən teatrşünaslar Rafiq Sadıxov və Vidadi Qafarov da görkəmli sənətkarın həyat və yaradıcılığından danışaraq bir sıra maraqlı faktlara toxundular

Sonda yekun sözü ilə Cahangir Zeynalovun nəvəsi Cahangir Novruzov çıxış etdi. O, ailədə, anasından, nənəsindən eşitdiyi faktlardan, babasının o vaxtki qoçular tərəfindən necə yaralanmasından, əlsində tif xəstəliyindən deyil, 1918-ci il hadisələri zamanı Bakıda gördüyü dəhşətlərə tab gətirməyərək fəfat etməsindən söhbət açdı. Daha sonra həm nənəsi, həm də anası haqqında maraqlı hadisələri danışdı. Və sonda hər kəsə, bu tədbiri təşkil edənlərə xüsusi təşəkkürünü bildirdi.

Cahangir Zeynalovun 150 illiyi münasibətilə digər bir tədbir isə Akademik Milli Dram Teatrında dövlət səviyyəsində keçirildi.

Yubiley mərasimində baş nazirin müavini Elçin Əfəndiyev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev,Türkiyə və Rusiyadan gəlmiş qonaqlar, TÜRKSOY-un üzvləri, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak edirdi.




Tamaşaçılar əvvəlcə teatrın foyesində Dövlət Teatr Muzeyinin təşkil etdiyi, Cahangir Zeynalovun ömür yolunu əks etdirən fotosərgi ilə tanış oldular.

Tədbirdə Azərbaycan Respublikası Mədəniyyət vəTurizm Naziri Əbülfəs Qarayev, TÜRKSOY-un baş katibi Dusen Kaseinov, Akademik Milli Dram Teatrının bədii rəhbəri - baş rejissoru Azər Paşa Nemətov çıxış edərək Cahangir Zeynalovun türk dünyasında əsas səhnə xadimləri sırasında yer aldığını, Azərbaycanın belə qüdrətli teatr xadimləri ilə hər zaman zirvələr fəth edəcəyini bildirdilər.

Çıxışlarda sonra Yubiley münasibətilə Aademik Milli Dram Teatrında hazırlanmış "Cahangirdən Cahangirə" adlı bədii layihə təqdim edildi. Layihə çərçivəsində yubilyarın nəvəsi, əməkdar incəsənət xadimi, Adana Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzovun rejissorluğu və baş rolda ifası ilə təqdim olunan A.P.Çexovun "Qu quşunun nəğməsi" əsəri maraqla qarşılandı.

Xatırladaq ki, əsəri Azərbaycan dilinə Cahangir Novruzov özü tərcümə etmişdi. Cahangir Novruzov bu əsərlə 20 il fasilədən sonra Azərbaycan teatrının səhnəsində yenidən çıxış edmiş oldu. Tamaşada Cahangir Novruzova (Svetlovidov) gənc aktyor Hikmət Rəhimov (Nikita İvanoviç) tərəf müqabillik etdi.

Əsər teatrdan, ömrünü səhnəyə həsr edən aktyorun çəkdiyi iztirablardan, çətinliklərdən bəhs edirdi.

